# Kəhf surəsi; 24, 39 (İnşaAllah və maşaAllah zikrlərini çox edənlər şirki darmadağın edər, dünyaya hakim olarlar)

**Adnan Oktarın 17 İyun 2010 tarixli Kahramanmaraş Aksu TV və Kaçkar Tv reportajından**

**ADNAN OKTAR:** Axırzamanda İslam əxlaqının dünyaya hakim olmasına vəsilə olacaq bir insan gələcək. Dünyanın son zamanında. Hədislərdə bu çox əhatəli, təfərrüatlı ifadə edilmişdir. Peyğəmbərimiz (s.ə.v)-in ifadə etdiyi bu əlamətlərin hamısı oldu. Təxminən 150-yə yaxın əlamət vardı, 150-si də oldu. Bədiüzzaman Səid Nursi də tarix verərək, təfərrüat verərək, yer verərək çox açıq izah etmişdir. Eynisi ilə bu hadisə meydana gəldi. Quranda da Allah deyir; **"Axırzamana çatdığınızda, dəccal dövrünə çatdığınızda Kəhf surəsini oxuyun"** deyir. Kəhf, 110 ayədən ibarətdir, 18-ci surədir. 110 vur 18, 1980 tarixini verər. Mehdi (ə.s)-ın çıxış tarixidir. Çox mənalıdır. Orada tək bir ayədə keçər. "Bir işə başladığında, sabah olacaq, edəcəyin bir şey olduğunda, hər hansı bir şey olduqda "İnşaAllah deyin" deyir Allah. Yəni "Allahın icazəsi ilə", "Allahın diləməsi ilə". "inşaAllah" bir zikrdir. "La İlahə illəllah" kimi, "sübhanAllah" kimi, "Allahu Əkbər" kimi, "Əlhəmdülillah" kimi bir zikrdir. Allahı zikr etməkdir. Başqa sözlə, bərəkətlidir. Axırzamanda “inşaAllah”ı, "maşaAllah”ı çox istifadə edənlər dünyaya hakim olacaqlar. Mehdi (ə.s)-ın tələbələrinin xüsusiyyətidir. Bir sirli kəlimədir, sirli cümlədir. Kəhf əhlinin də xüsusiyyətidir. Axırzamanın xüsusiyyətidir. Bir şey gördüyümüzdə; "maşaAllah, Allah nə gözəl yaratmışdır." Beləcə, şirkdən xilas olmuş oluruq. "İnşaAllah" da; Allahın icazəsi ilə, Allahın yaratmasıyla, Allahın qədərdə yaratması ilə. Hər ikisi də anti-şirk sözlərdir, "inşaAllah" və "maşaAllah". Şirkə zərbədir. Şirki darmadağın edən iki sözdür. Nur surəsində Allah, Allaha şirk qoşmayanların dünyaya hakim olacağını söyləyir. İndi sabah mən bir şey edəcəyəm desəm, əgər Allahı unudaraq söyləsəm, Allahın yaradacağını unutsam, bu şirk olar. Amma "inşaAllah", "Allahın diləməsiylə", "Allahın qədərdə yaratmasıyla" edəcəyəm desən, şirkdən xilas olmuş olarsan. Müşrik olmamış olarsan. Bir də "bir şey nə qədər gözəldir desən" ona ilahlıq vəsf etmiş olarsan. Amma "Allah nə gözəl yaratmışdır" desən şirkdən xilas olmuş olarsan. "İnşaAllah" və "maşaAllah" Axırzamanda şirki parçalayan Allahın iki zikridir. Bu iki zikr şirki parçalayar. Büt parçalayıcıdır, inşaAllah...

https://www.harunyahya.info/az/meqaleler/kehf-suresi-24-39-insaallah-ve-masaallah-zikrlerini-cox-edenler-sirki-darmadagin-eder-dunyaya-hakim-